# Baş xüsusi müəllim üçün peşə bacarıqları testi

Təlimat

Testin elektron bukleti qarşınızdadır.

Testdə 3 tip tapşırıq var:– seçim, uyğunluq və açıq (cəmi 40 tapşırıq).

Testin maksimal balı 54-dür.

Hər tapşırıq blokunun əvvəlində təlimat verilib. Hər birini diqqətlə oxuyun, sizdən nə tələb edildiyini yaxşı dərk edin, sonra cavabı seçin və ya yazın.

Test üzərində işləmək üçün sizə 4 saat vaxt verilir.

Sizə uğurlar arzu edirik!

## Təlimat

Seçmə növlü tapşırıqların dörd ehtimal olunan cavabı var. Onlardan yalnız biri doğrudur. Tapşırığın mahiyyətini daha yaxşı başa düşmək üçün sualda altından xətt çəkilən, tünd rənglə göstərilən ifadələrə diqqət yetirin.

*Seçmə növlü tapşırıqlara bir bal verilir.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 1**

Bəzən xüsusi müəllim sinifdə xüsusi təhsilə ehtiyacı olan şagirdə assistentlik edir. O, bu prosesdə şagirdin sinif yoldaşları ilə də ünsiyyətdə olur. İnklüziv tədris prinsiplərinə əsasən xüsusi müəllimin hərəkəti:

ა) **Doğru deyil,** çünki xüsusi müəllimin vəzifəsi xüsusi təhsilə ehtiyacı olan şagirdə assistentlik etməkdir və bu vaxtı şagirdin sinif yoldaşlarına sərf etməməlidir.

ბ) **Doğrudur,** çünki xüsusi müəllim bu yolla xüsusi təhsilə ehtiyacı olan şagirdin sinif yoldaşlarına yaxınlaşmasına və onlar arasında məsafənin azalmasına şərait yaradır.

გ) **Doğru deyil,** çünki xüsusi müəllimlə ünsiyyət xüsusi təhsilə ehtiyacı olan şagirdin sinif yoldaşlarının diqqətini yayındıra və dərs prosesinə mane ola bilər.

დ) **Doğrudur,** çünki xüsusi təhsilə ehtiyacı olan şagirdin sinif yoldaşları ilə xüsusi müəllimin pozitiv interaksiyası sinifdə şən əhval-ruhiyyənin yaradılmasına dəstək verir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 2**

Şagirdin imkanları və Milli Tədris Planı (MTP) ilə nəzərdə tutulmuş tələblər arasında mövcud fərqi azaltmaq məqsədilə, MTP-nın adaptasiya edilməsinə (uyğunlaşdırılmasına) müraciət edilir. Adaptasiyanın əsas iki növü məlumdur – akkomodasiya və modifikasiya.

Sadalananlar arasında MTP-nın akkomodasiyası hansı müddəada təsvir olunub?

ა) Xüsusi təhsilə ehtiyacı olan şagirdin fərqli resurslar və fərqli yanaşmalar ilə tədrisi, bu zaman tələblər eyni qalır və resursların əlçatanlığı dəyişir.

ბ) Milli Tədris Planı ilə müəyyən edilmiş əldə ediləcək nəticələrin kəmiyyətcə və ya xassəcə dəyişikliyi, bu da tədris məqsədlərinin azaldılmasını, artırılmasını, sadələşdirilməsini və ya çətinləşdirilməsini tələb edir.

გ) Mühiti və konteksti nəzərə alaraq, xüsusi təhsilə ehtiyacı olan şagirdə müstəqil həyat üçün lazım olan bacarıqların inkişafına yönəlmiş məqsədlərin seçimi.

დ) Milli Tədris Planı ilə müəyyənləşdirilmiş elə bir əldə ediləcək nəticələrin seçimi ki, bunlar da şagirdin yiyələndiyi biliyin məktəbdən kənarda, fərqli vəziyyətlərdə istifadəsinə dəstək verəcək.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 3**

Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdi qiymətləndirdikdə, şagirdin kateqorizasiyada çətinlik çəkdiyini və bu qabiliyyət üzərində işləməsi ehtiyacını görür.

Əgər xüsusi təhsilə ehtiyacı olan şagird kateqorizasiyada çətinlik çəkirsə, hansı fəaliyyəti **yerinə yetirə bilməyəcək**?

ა) Konkret hadisənin səbəblərini və onun nəticələrini müəyyən etməyi.

ბ) Müəyyən hadisələri, süjetləri və prosesləri məntiqi ardıcıllıqla düzməyi.

გ) Oxşar xüsusiyyətlərinə əsasən obyektləri qruplaşdırmağı.

დ) Kartda təsvir edilən hadisələr və ətraf mühitdə mövcud obyektlər arasında yanaşmanı təyin etməyi.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 4**

Xüsusi təhsilə ehtiyacı olan şagird 4-cü sinifdədir. O, oxşar cizgisi olan hərfləri (c-ç, s-ş, g-ğ və s.) bir-birindən ayırmaqda və iki hərfdən ibarət hecada tanış hərfləri bütövləşdirməkdə çətinlik çəkir. Müəllim qarşısına qısamüddətli məqsəd qoyub ki, şagird dördüncü sinfin dərsliyində verilən mətnlərdən sözləri oxuya bilsin. O, qarşıya qoyulan məqsədi əldə etmək üçün tez-tez şagirdə mətnlərdən müxtəlif sözlər oxutdursa da, şagirdin tərəqqisinin olmadığını söyləyir.

Şagirdin tərəqqisinin **olmadığını** hansı səbəb əmələ gətirir?

ა) Müəllim yalnız bir növdə, birrəngli fəaliyyətlərdən istifadə edib.

ბ) Müəllimin istifadə etdiyi fəaliyyət şagird üçün darıxdırıcı olub.

გ) Müəllim qarşıya qoyulan məqsədi əldə etmək üçün qeyri-adekvat strategiyadan istifadə edib.

დ) Müəllim şagirdin imkanı üçün çətin və uyğun olmayan bir məqsəd seçib.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 5**

Müəllim tərəfindən şagirdin inkişafetdirici qiymətləndirmə məqsədidir:

ა) Təlim-tədris prosesində şagirdin canatmaları və maraqlarını aşkar etmək.

ბ) Təlim-tədris prosesinə yardım, fərdi uyğunlaşdırılmış irəliləyişi dəstəkləmək.

გ) Əvvəlcədən müəyyənləşdirilmiş nəticələrlə münasibətdə, şagirdin akademik nailiyyət səviyyəsini təyin etmək.

დ) Dərs ilinin sonunda konkret fənn ilə bağlı şagirdin bilik səviyyəsini müəyyənləşdirmək.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 6**

Şagird evdən məktəbə qıcıqlanmış vəziyyətdə getmişdi və dərsdə ağlamağa başladı. Müəllim dərs fəaliyyətini dayandırmaq istəmirdi və şagirdi sakitləşdirməyə çalışdı. Şagirdə dedi ki, ümumiyyətlə onun yaşında nəyə görəsə ciddi şəkildə əsəbləşməyə dəyməz.

Müəllimin hərəkəti:

ა) **Doğrudur,** çünki əgər müəllim şagirdə daha xırdalıqlarla yanaşıb əlavə suallar versəydi, dərs fəaliyyətini davam etdirə bilməzdi və dərsdə maneələr olardı.

ბ) **Doğru deyil,** çünki müəllim diqqət yönəltməklə şagirdin problemli davranışını daha da gücləndirərdi və şagird istədiyi nəticəni almaq üçün başqa vaxt da eyni hərəkəti təkrarlayardı.

გ) **Doğrudur,** çünki müəllim şagirdi dərhal sakitləşdirdi, öz hərəkəti ilə onun üçün lazımi dəstəyi təmin etdi və dərsə qatılması üçün zəmin yaratdı.

დ) **Doğru deyil,** çünki müəllimin şagirdin emosiyasını dəyərsizləşdirməsi, onda başa düşülmədiyi hissini yarada bilər və bu da onun müəllimlə münasibətini korlaya bilər.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 7**

Xüsusi təhsilə ehtiyacı olan şagird imlada əlifbanın bütün hərflərini müstəqil şəkildə düzgün yaza bilsə də, iki hərfdən ibarət hecanı/sözü imla ilə yaza bilmir və hərflərin ardıcıllığını xatırlatmağı tələb edir.

Təsvir edilən problemi çətinlik yaradır və bu da bağlıdır:

ა) fonematik eşitmə ilə

ბ) sözün fonoloji analizi ilə

გ) göz və əlin koordinasiyası ilə

დ) səs və hərfin bir-birinə uyğunlaşdırılması ilə

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 8**



Fotoda göstərilən resursun istifadəsi sadalananlar arasında hansı təhsilə ehtiyacı olan şagird üçün **ən effektivdir**?

ა) Çox və az riyazi simvolları başa düşməkdə və öyrənməkdə çətinlik çəkən şagird üçün.

ბ) Nadir istifadə edilən sözləri oxumaqda və riyazi terminləri başa düşməkdə çətinlik çəkən şagird üçün.

გ) Sağ-sol tərəfi ayırmağı öyrənməkdə çətinlik çəkən və çox vaxt tələb edən şagird üçün.

დ) Rəqəmlərlə əməl etməkdə çətinlik çəkən və tez-tez barmaqla və ya konkret obyektlərlə saymağa istinad edən şagird üçün.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq  N 9**

İntellektual pozuntusu olan şagirdin tədrisində müəllim sadalananlar arasında hansı tövsiyəni nəzərə almalıdır?

ა)  Maksimal olaraq konkret təlimatlar versin.

ბ)  Yalnız yazılı təlimatlar versin.

გ)  İkipilləli və üçpilləli göstərişlər versin.

დ)  Hissələrə bölünməmiş dərs materialını versin.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 10**

Davranış və emosional pozuntuları olan şagirdlərin çətin davranışını idarə etmək məqsədilə, müəllim tez-tez planlaşdırılmış iqnor etmə texnikasını tətbiq edir.

Planlaşdırılmış iqnor etmə texnikasının tətbiqi **ən çox** məqsədəuyğundur, əgər:

ა) Şagird qrup oyununda iştirak etmək istəmirsə.

ბ) Şagird dərsdə qeyri-məktəb əşyaları ilə əylənmək istəyirsə.

გ) Şagird çağırıcı davranışı ilə müəllimin diqqətini çəkmək istəyirsə.

დ) Şagird müəllimin verdiyi fəaliyyəti yerinə yetirmək istəmirsə.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 11**

Şagirdin fərdi ehtiyacları və özünəməxsusluqlarını nəzərə alaraq, təlim-tədris prosesində müxtəlif yanaşmadan istifadə olunur. Bunlardan biri də universal dizayndır.

Aşağıda verilən ifadələrdən hansı tədrisin universal dizaynını **ən adekvat** şəkildə təsvir edir?

Tədrisin universal dizaynı nəzərdə tutur:

ა) Şagirdləri həddən çox qıcıqlandırıcılardan qoruyan və tədris üçün optimal şərtlər yaradan fiziki mühitin modifikasiyasını.

ბ) Xüsusi təhsilə ehtiyacı olan şagirdə materialı mənimsətmək məqsədilə, hissiyyatın müxtəlif modallığının tətbiqini tələb edən forma ilə çatdırılmasını.

გ) Hər bir şagirdin fərdi təlim üslubu nəzərdə tutulan dərslərin, materialın, resursun planlaşdırılması və hazırlanmasını.

დ) Tədris metodları və dərs resurslarının hər hansı bir xüsusi təhsilə ehtiyacı olan şagirdin ehtiyaclarına uyğunlaşdırılmış şəkildə təşkilini.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 12**

Nitqin iki aspekti var: ekspressiv və impressiv.

Sadalananlardan hansı xüsusi təhsilə ehtiyacı olan şagirdin ekspressiv dil çətinliyi olduğuna işarə edir?

ა) Şagird suallar verməkdə və şərh etməkdə çətinlik çəkir.

ბ) Şagird kartda təsvir olunan obyekti tanımaqda çətinlik çəkir.

გ) Şagird təlimatları başa düşməkdə və izləməkdə çətinlik çəkir.

დ) Şagird jestlərin mənasını başa düşməkdə çətinlik çəkir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 13**

Xüsusi müəllim Daun sindromu olan şagirdin təlim prosesində hansı strategiyadan/strategiyalardan istifadə etməlidir?

I. Şagirdə hissələrə bölünmüş tapşırıqlar verməli və mərhələlərlə yeni təlimatla təmin etməlidir.
II. Toxunmaqla, eşitmək və görməklə təlimi nəzərdə tutan multimodal yanaşmadan istifadə etməlidir.
III. Şagirdə icazə verməlidir ki, istədiyi vaxt və ya ümumiyyətlə müəllimin verdiyi tapşırığı yerinə yetirməsin.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 14**

Müəllim bəzi şagirdlərin dərs materialını mənimsəyə bilmədiyini, buna görə də marağını itirdiyini və dərs prosesindən uzaqlaşdığını görürdü. O, dərs prosesinin effektivliyi məqsədilə, materialı hissələrə ayırdı və imkanlarına uyğun olaraq şagirdlər arasında bölüşdürdü, tapşırığı yerinə yetirmək üçün bəzi şagirdlər üçün vaxtı da artırdı.

Müəllimin hərəkəti məqsədə:

ა) **Adekvatdır**, **ç**ünki proqram elə tərtib edilməmişdir ki, hər bir şagirdin bacarıqları bərabər şəkildə nəzərə alınsın və müəllim öz nəzərinə əsasən istənilən vaxt dərs prosesində dəyişiklik edə bilər.

ბ) **Adekvat deyil,** çünki müəllim sinfin maraqlarından irəli gələrək hərəkət etməlidir və ayrı-ayrı şagirdin fərdi imkanlarına görə dərs prosesində maneələr yaranmamalıdır.

გ) **Adekvatdır**, **ç**ünki müəllim dərs məqsədləri və məsələlərini şagirdlərin imkanlarına uyğunlaşdıra bilməlidir ki, hər bir şagirdin dərs prosesinə cəlb olunmasını təmin etsin.

დ) **Adekvat deyil,** çünki müəllim dərs proqramlarının gerçəkləşdirilməsinə nəzarət etməli və bütün şagirdlərin eyni dərs nəticəsini əldə etməsini təmin etməlidir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 15**

Fərdi Təlim Planının (FTP) monitorinqi təlim-tədris prosesini müşayiət edən bir prosesdir. Tam monitorinq üçün nəzərə alınası tövsiyələr var. Sadalananlar arasında hansı fəaliyyət/fəaliyyətlər FTP-nin monitorinq prosesini təsvir edir?

I. Müəllim hər mövzu başa çatdıqdan sonra şagirdin nailiyyətlərini cəmləşdirir, qarşıya qoyulan məqsədlərlə münasibətdə şagirdin yerinə yetirdiyi işin keyfiyyətini təsvir edir.

II. Müəllim şagirdin zəif və güclü tərəflərini, imkanlarını və ehtiyaclarını bir də xırdalıqlarla qiymətləndirir, müvafiq tövsiyələr işləyib hazırlayır.

III. Müəllim yalnız şagirdin FTP-nın qısamüddətli məqsədlərini əldə etdiyi halda, dərs ilinin sonunda əldə ediləcək nailiyyətin modifikasiyasına qayğı göstərir.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

## Təlimat

Uyğunluq tapşırıqları cədvəl şəklində verilir. Cədvəl iki sütundan ibarətdir. Bir sütunda şərt verilir, digərində isə - ehtimal cavablar. Sütunlarda verilən məlumatı bir-birinə uyğunlaşdırmalı və cavabı əlavə edilən cədvələ yazmalısınız. Mütləq cavabın bütün variantlarını oxuyun. Nəzərə alın ki, bunlardan hər hansı biri iki şərtə uyğun gələ bilər və ya heç birinə uyğun gəlməyə bilər.

*Uyğunluq tapşırıqlarına bir bal verilir.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 16**

A sütununda şagirdlərin çətin davranışına müəllimin müxtəlif reaksiyaları verilir, B sütununda isə - çətin davranışın idarəetmə texnikaları. Onları bir-birinə uyğunlaşdırın.

| Müəllimin reaksiyası (A) | | Texnika (B) |
|---|---|---|
| I. | "Nika, lövhədə misallar yazanda və sən də bu zaman səs salanda, diqqəti cəmləşdirmək çətindir, səs-küydə işləyə bilmirəm". | ა) Dolayı təkrarlama texnikası |
| II. | Nino tapşırığı yerinə yetirmək əvəzinə oynayanda, müəllim deyir: "Baxın, Lika artıq işə başlayıb, afərin Lika!" | ბ) „Mən" ismarıc texnikası |
| III. | Xüsusi təhsilə ehtiyacı olan şagird qrup işinə qoşulmur, müəllim onun qrup üzvlərinə yaxınlaşır və deyir: "Afərin, tapşırığı yaxşı yerinə yetirirsiniz". | |

***Uyğunluqları cavablar vərəqindəki cədvələ yazın. Aydın şəkildə yazın.***

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 17**

Öyrənmə bacarığının pozuntusu bütün uşaqlarda fərqli olur, amma onlarda ümumi özünəməxsusluq da ola bilər.

A sütununda öyrənmə çətinliyinin nümunələri verilir, B sütununda – öyrənmə qabiliyyətinin zəifləmə növləri. Onları bir-birinə uyğunlaşdırın.

| Öyrənmə çətinliyi (A) | Zəifləmə növü (B) |
|---|---|
| I. Rəqəmləri mənimsəmək, onların mənasını anlamaq, sadə riyazi əməlləri yerinə yetirmək problemləri xarakterikdir. | ა) Disleksiya |
| II. Nadir istifadə edilən sözləri oxumaq və oxunulandan nəticə çıxarmaq çətinliyi təqdim edir. | ბ) Diskalkuliya |
| III. Ölçü ilə bağlı əməlləri yerinə yetirmək çətindir, istiqamətləri və tərəfləri ayırd etməyi öyrənmək çox vaxt tələb edir. | |

**Uyğunluqları cavablar vərəqindəki cədvələ yazın. Aydın şəkildə yazın.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 18**

Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin ehtiyaclarını nəzərə almaqla tədris komponentlərini dəyişməlidir.

A sütununda dərs fəaliyyətləri verilib, B sütununda isə - tədris komponentləri. Onları bir-birinə uyğunlaşdırın.

<table>
<tr><th>Dərs fəaliyyəti (A)</th><th>Komponent (B)</th></tr>
<tr><td>I. Xüsusi təhsilə ehtiyacı olan şagird ev tapşırığının məzmununu yazılı şəkildə yerinə yetirmək əvəzinə şəkillə ötürür.</td><td rowspan="3">ა) formanın dəyişdirilməsi<br><br>ბ) məzmunun dəyişdirilməsi</td></tr>
<tr><td>II. Xüsusi təhsilə ehtiyacı olan şagird mətnin məzmununu nəql etmək əvəzinə süjetli şəkilləri düzgün ardıcıllıqla düzməklə ötürür.</td></tr>
<tr><td>III. Xüsusi təhsilə ehtiyacı olan şagird riyaziyyatda vurma-bölmə çalışmalarının əvəzinə toplama-çıxma tapşırıqlarını yerinə yetirir.</td></tr>
</table>

** Uyğunluqları cavablar vərəqindəki cədvələ yazın. Aydın şəkildə yazın.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

## Təlimat

Açıq növdə tapşırıq göstərilən məsələ haqqında arqumentli müzakirə tələb edir. Tapşırığın şərtini və sualı diqqətlə oxuyun. Nəzərə alın ki, cavabınız konkret və suala uyğun olmalıdır.

Cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca xüsusi ayrılmış yerdə cavabınızı yazın; tapşırıq üçün ayrılmış sahədən kənara çıxmayın.

*Hər bir açıq növdə tapşırıq boyunca maksimal bal göstərilib.*

*Nəzərə alın: açıq tapşırığın cavabında diskriminativ terminin istifadəsi üçün bir balınız azalacaq!*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 19**

*Maksimal bal - 3*

Xüsusi təhsilə ehtiyacı olan şagirdin valideynləri ilə ünsiyyət zamanı obyektiv məlumatın ehtiyatla çatdırılması önəmlidir. Xüsusi müəllim söhbət zamanı nəzərə almalıdır ki, övladlarının vəziyyətinə aid olan məsələ valideynlər üçün çox ağrılı ola bilər, buna görə də övladları barədə valideynlərlə söhbət zamanı spesifik metodlardan istifadə etmək lazımdır.

– Valideynə övladı barədə obyektiv məlumatı ağrısız çatdırmaqda xüsusi müəllimə yardım edəcək metodu təsvir edin.
– İzah edin ki, nə üçün bu metodun istifadəsi xüsusi təhsilə ehtiyacı olan şagirdin valideynləri ilə ünsiyyət zamanı effektivdir.

***Cavabı cavablar vərəqindəki tapşırığın uyğun nömrəsinin yanına yazın.***

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 20**

*Maksimal bal - 3*

Öyrənmə qabiliyyətində pozuntu olan şagirdlərin bəzən yaddaş qüsuru olur, – çatdırılan məlumatı təkrarlamaqda və tapşırıqları düzgün ardıcıllıqla yerinə yetirməkdə çətinlik çəkirlər və bu da son nəticədə onların akademik nailiyyətlərində mənfi əksini tapır.

- Xüsusi təhsilə ehtiyacı olan şagirdin yaddaşının inkişafına yardım edən strategiyanı təsvir edin.
- Cavabınızı əsaslandırın.

***Cavabı cavablar vərəqindəki tapşırığın uyğun nömrəsinin yanına yazın.***

**Tapşırıq N 21**

*Maksimal bal - 3*

Şagird diqqətini cəmləşdirməkdə çətinlik çəkir. Müəllim dəfələrlə qeyd edib ki, yeni materialın izahına başladıqdan, ortalama 4-5 dəqiqədən sonra, şagirdə materialın aydın olmasına baxmayaraq, onun diqqəti yayınır, kitablardakı illüstrasiyalara baxır və dərs prosesini izləyə bilmir.

- Diqqətini cəmləşdirmək problemi olan şagirdin dərs prosesinə daha yaxşı cəlb olunmasına yardım edəcək strategiyanı təsvir edin.
- Təsvir etdiyiniz strategiyanın effektivliyini əsaslandırın.

***Cavabı cavablar vərəqindəki tapşırığın uyğun nömrəsinin yanına yazın.***

# Təlimat

Seçmə növlü cavabları olan tapşırıqların dörd ehtimal cavabı var, bunların arasında yalnız biri doğrudur. Tapşırığın mahiyyətini daha yaxşı başa düşmək üçün sualda vurğulanan, tündləşdirilmiş ifadələrə diqqət yetirin.

*Seçmə növlü cavabları olan tapşırıqlara bir bal verilir.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 22**

Sadalananlar arasında hansı əməl xüsusi müəllimin peşəkar etika prinsiplərinə əməl etdiyini göstərir?

ა)  Müəllim şagirdlərdən sinif üçün işlənib hazırlanmış davranış qaydalarına əməl etməyi tələb edir.

ბ)  Müəllimin özü sinif üçün işlənib hazırlanmış davranış qaydalarına ciddi əməl edir və bunlara uyğun olaraq hərəkət edir.

გ)  Müəllim nəzarət edir ki, xüsusi təhsilə ehtiyacı olan şagird sinifdə işlənib hazırlanmış davranış qaydalarına necə əməl edir.

დ) Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin çətinliyinin nəzərə alınması ilə işlənmiş qaydaları sinifdə asır.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 23**

Oxunu öyrənmək məqsədyönlü çalışma nəticəsində əldə edilir və mürəkkəb linqvistik prosesdir.

Sadalananlar arasında hansı baza bacarığı/bacarıqları oxunun öyrənilməsini təmin edir?

I. prosedur yaddaşı

II. vizual-məkan bacarıqları

III. fonematik analiz və sintez

ა) Yalnız I; ბ) Yalnız I və III; გ) Yalnız II; დ) Yalnız II və III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 24**

Sinifdə bir parta arxasında oturanda, hər zaman mübahisə edən iki şagird var. Tez-tez onların münaqişəsi fiziki aqressiyaya da keçir.

Təsvir edilən böhran vəziyyətinin idarə edilməsi nöqteyi-nəzərindən, müəllim görəndə ki, şagirdlər mübahisəyə başlayıblar, hansı hərəkət **ən effektiv** olacaq?

ა) Müəllim şagirdlərin mübahisəsini dayandırmalı və onları ayrı-ayrılıqda əyləşdirməli, dərs bitdikdən sonra isə mütləq onlarla söhbət aparmalı və mübahisənin səbəblərini araşdırmalıdır.

ბ) Müəllim şagirdlərə töhmət verməlidir. Dərhal mübahisəni dayandırmağı xahiş etməli və onların davranışının dərsin gedişatına mane olduğunu xatırlatmalı, sonda isə valideynləri çağırmalıdır.

გ) Müəllim çətin davranış gördükdə şagirdlərə diqqət verməməli, dərsi sakitcə davam etdirməlidir. Şagirdlər problemli davranışla müəllimin diqqətini cəlb edə bilməməlidirlər.

დ) Müəllim şagirdlərdən mübahisəni dayandırmağı xahiş etməlidir. Fiziki aqressiyanı gördükdə, hər zaman onlara sinfi səliqəyə salmağı tapşırmalıdır ki, şagirdlər gələcəkdə oxşar hərəkəti təkrar etməsinlər.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 25**

Uşağın məktəbə tranzisiyasının nailiyyətli hesab edilməsi üçün o, müvafiq meyarlara cavab verməlidir.

Sadalananlar arasında hansı indikator işarə edir ki, məktəbdə şagirdin tranzisiyası nailiyyətlə **davam etmir?**

ა) Şagird dərs prosesinə cəlb olunsa da, bəzən müəllimlərdən yardım istəyir.

ბ) Şagirdin dərslərə davamiyyəti olsa da, məktəbdə olduğu zaman fiziki məkanda səmtləşməkdə çətinlik çəkir.

გ) Şagird fəaliyyətlərdə iştirak edir, suallara da cavab verir, amma yalnız ehtiyac olduğu hallarda özü suallar verir.

დ) Şagird həmyaşıdları ilə birlikdə dərs prosesinə cəlb olunsa da, konkret fənlərdə təlim çətinlikləri var.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 26**

Məktəblərdə resurs otağının uyğun şəkildə təchizatı və təşkili xüsusi təhsilə ehtiyacı olan şagirdin effektiv tədrisi üçün vacibdir.

Sadalananlar arasında hansı şərt resurs otağının təşkili tələblərinə **uyğun deyil?**

ა) Resurs otağında müxtəlif növdə köməkçi əyani material asılmalıdır.

ბ) Resurs otağında xüsusi təhsilə ehtiyacı olan şagirdlərlə iş məkanı uyğunlaşdırılmış mebellə təşkil edilməlidir.

გ) Resurs otağının yumşaq döşəməli və yumşaq mebelli istirahət və relaksasiya məkanı olmalıdır.

დ) Resurs otağında divarlar parlaq, açıq rəngdə olmalı və pəncərələrdən bol günəş işığı daxil olmalıdır.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 27**

ADHD sindromlu şagirdlər davranışa nəzarətdə çətinlik çəkirlər. Belə hallarda müəllimlər davranış işarələrindən istifadə edir, şagirdlərə xatırladırlar ki, onlardan təlim və davranış nöqteyi-nəzərindən nəyi gözləyirlər.

Müəllim sadalanan fəaliyyətlərdən hansı halda/hallarda davranış işarələrindən istifadə edir?

I. Müəllim şagirdlə üz-üzə təmas qurur, onun partasına yaxınlaşır və ünsiyyət zamanı onunla razılaşdırılmış jestli siqnallardan istifadə edir.

II. Müəllim şagirdə məsləhət görür ki, onun diqqətinin keçirilməsinə səbəb olan konkret qıcıqlandırıcılardan çəkinsin.

III. Müəllim şagirdin xoşagəlməz davranışına diqqət vermir və tapşırığın yerinə yetirilmə nümunəsini sinfə əyani şəkildə göstərir.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 28**

Şagirdlərin motivləşdirilməsi üçün düzgün çatdırılmış əks əlaqənin böyük əhəmiyyəti var.

Sadalanan arasında hansı məsləhət **ən az** nəzərə alınasıdır ki, əks əlaqə istənilən effekt versin?

ა) Şagirdə əks əlaqə dərhal verilməlidir.

ბ) Əks əlaqə müəllimin gözləntisini əks etdirməlidir.

გ) Əks əlaqə uşaqda nəyin alındığını dəqiqliyi ilə təsvir etməlidir.

დ) Əks əlaqə uşaq üçün aydın şəkildə formalaşdırılmalıdır.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 29**

Şagirdi gözlənilən yeniliklə tanış etmək üçün istifadə olunan vasitələr rəngarəng və multimodal olmalıdır. Belə metodlardan biri sosial tarixlərdir.

Sadalanan ifadələrdən hansı sosial tarixin məzmununu tamdəyərli şəkildə təsvir edir?

Sosial tarix təsvir etməlidir:

ა) Vəziyyətin xüsusiyyətlərini, verilən vəziyyətdə nə baş verir və ya nə baş verəcək, bu zaman şagirdin özü nə etməlidir.

ბ) Şagirdin imkanlarını və bacarıqlarını, bunlar ona kontekstin nəzərə alınması ilə konkret vəziyyətdə lazım olacaq.

გ) Kartlarda təsvir edilən vəziyyətlərlə bağlı çağırışları ki, yeni mühitdə bunları da nəzərə almaq lazımdır.

დ) Fərdi ehtiyacları, bunlar da yeni mühitə tranzisiya prosesində şagirddə yarana bilər.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 30**

Xüsusi müəllim şagirdin yaddaşını qiymətləndirmək məqsədilə, ona rəngarəng fəaliyyətlər təklif edib.

Sadalananlar arasında hansı fəaliyyətlə şagirdin yaddaşını **ən yaxşı** qiymətləndirmək olar?

ა) Şagird obyektləri hər hansı bir kateqoriyada birləşdirir, sonra bu kateqoriyaya daxil olmayan obyekti adlandırır.

ბ) Kartları göstərdikdə, şagird onlarda təsvir olunan əşyaları müşahidə edir və sonra onları əzbər sadalayır.

გ) Şagird çatdırılan süjetli kartları məntiqi cəhətdən bir-birinə əlaqələndirir və hekayə qurur.

დ) Adı çəkilən sözləri dinlədikdən sonra şagird fikirləşir və onların sinonimlərini adlandırır.

**Tapşırıq N 31**

Xüsusi müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdə yazını tədris etmək məqsədilə, incə motorikanı inkişaf etdirən fəaliyyətlərdən istifadə edib.

Sadalananlar arasında hansı fəaliyyət qeyd edilən qabiliyyətin inkişafına **ən çox** dəstək verəcək?

ა) Nümunəyə əsasən, şagirdin hərəkətli əlifba ilə maqnit lövhədə sözlər qurması.

ბ) Şagirdin adlandırdığı sözlərə uyğun illüstrasiyaları dəftərdə yapışdırması.

გ) Nümunəyə əsasən, şagirdin hərflər yapması və konturlara riayət etməklə rəngləməsi.

დ) Şagirdin çantanı açması, dəftəri çantadan çıxarması və onu vərəqləməsi.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 32**

Sadalananlar arasında hansı komponent xüsusi təhsilə ehtiyacı olan şagirdin fərdi təlim planında **əks olunmamışdır?**

ა) Evdə tədris cədvəli

ბ) Fərdi davamiyyət cədvəli

გ) Şagird üçün lazımi akomodasiyalar

დ) Şagird üçün lazımi tövsiyələr

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 33**

Pozitiv, şagirdyönümlü dərs mühitini yaratmaq məqsədilə, müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdi də əvvəlcədən planlaşdırılmış sinif fəaliyyətinə cəlb edib.

Müəllimin  hərəkəti məqsədə:

ა) **Adekvatdır**, çünki ümumi sinif fəaliyyətləri xüsusi təhsilə ehtiyacı olan şagirdin sinifə inteqrativləşməsinə dəstək verir.

ბ) **Adekvat deyil,** çünki xüsusi təhsilə ehtiyacı olan şagird tapşırığı yerinə yetirə bilmədikdə, sinif yoldaşları ona gülə bilərlər.

გ) **Adekvatdır**, çünki ümumi sinif fəaliyyətləri xüsusi təhsilə ehtiyacı olan şagirdin koqnitiv bacarıqlarının inkişafına dəstək verir.

დ) **Adekvat deyil,** çünki oxşar hərəkət xüsusi təhsilə ehtiyacı olan şagirdin proqnozlaşdırılmayan davranışına səbəb ola bilər.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 34**

Xüsusi müəllim yazı üzrə akademik qabiliyyətlərin tamdəyərli qiymətləndirilməsi üçün sadalananlar arasında hansı komponenti/komponentləri təhlil etməlidir?

I. Motorik komponenti, orfoqrafiya qaydalarına riayət edilməsini və məzmun tərəfinin ötürülmə qabiliyyətini qiymətləndirməlidir.

II. Hərflərin qrafiki cəhətdən əks etdirilməsini, onların ölçü və ya formasına riayət edilməsini və yazının yerləşmə qabiliyyətini qiymətləndirməlidir.

III. Əsas komponenti qiymətləndirməlidir, - yazıdan müəllifin fikrini çıxarmaq, əsas ideyanı tapmaq və analiz qabiliyyətini.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 35**

Müəllim sinifə girəndə görür ki, şagirdlərdən biri sinif yoldaşının kitabını götürüb cırır. Müəllim kitabı şagirdin əlindən alır və sərt şəkildə deyir: “Həmişə belə edirsən, olmaz! Sənin kitabını cırsam, xoşuna gələrmi?”

Müəllimin hərəkəti:

ა) **Doğrudur,** çünki müəllim dərhal müdaxilə etməklə, şagirdin problemli davranışını dayandırdı. Bu halda isə, məhz problemli davranışı dayandırmaq əsasdır ki, şagirdlər arasında fiziki qarşıdurmaya keçməsin.

ბ) **Doğru deyil,** çünki şagirdə qarşı sərt və hündür səs tonunun istifadəsi, onun müəllimə tabe olmadığı halda məqsədəuyğun olardı. Bu halda, bu tamamilə yersizdir.

გ) **Doğrudur,** çünki müəllim şagirdə işarə edir ki, özü də oxşar yanaşma obyekti ola bilər və bu da onun üçün çox xoşagəlməz olardı. Bununla müəllim şagirdə aydın şəkildə onun davranışının nə dərəcədə qəbul edilməz olduğunu göstərir.

დ) **Doğru deyil,** çünki sinif qarşısında şagirdi günahlandırmaq onun müəllimə qarşı neqativ yanaşmasının formalaşmasına dəstək verə bilər və vəziyyəti axıra qədər yüngülləşdirməz.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 36**

Sinfə xüsusi təhsilə ehtiyacı olan şagird keçir və müəllim çalışır ki, onu qarşılamaq üçün sinif yoldaşlarını hazırlasın. Bu isə xoş ovqatlı mühitin formalaşdırılması üçün vacibdir.

Sadalananlar arasında müəllimin hansı hərəkəti/hərəkətləri sinifdə xoş ovqatlı münasibətin formalaşmasına dəstək verəcək?

I. Müəllim sinifdə "Fərqlilik və tolerantlıq" mövzusunda diskussiya keçirsin.

II. Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdlə onun sinif yoldaşlarının birgə fəaliyyətlərini planlaşdırsın.

III. Müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin ehtiyacları haqqında söhbətdən çəkinsin.

ა) Yalnız I; ბ) Yalnız I və II; გ) Yalnız II və III; დ) Yalnız III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

## Təlimat

Açıq növdə tapşırıq göstərilən məsələ haqqında arqumentli müzakirə tələb edir. Tapşırığın şərtini və sualı diqqətlə oxuyun. Nəzərə alın ki, cavabınız konkret və suala uyğun olmalıdır.

Cavablar vərəqində tapşırığın müvafiq nömrəsi boyunca xüsusi ayrılmış yerdə cavabınızı yazın; tapşırıq üçün ayrılmış sahədən kənara çıxmayın.

*Hər bir açıq növdə tapşırıq boyunca maksimal bal göstərilib.*

*Nəzərə alın: açıq tapşırığın cavabında diskriminativ terminin istifadəsi üçün bir balınız azalacaq!*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 37**

*Maksimal bal - 3*

Məktəbdə tez-tez müxtəlif növ pozuntusu və məhdudiyyəti olan şagirdlərə rast gəlinsə də, hamısı xüsusi təhsilə ehtiyacı olan şagird statusuna malik deyil. Onlardan bəzilərinə bu lazım deyil, bəzi şagirdlərin valideynləri isə, ehtiyac olmasına baxmayaraq, övladlarına xüsusi təhsilə ehtiyacı olan şagird statusunun verilməsindən imtina edirlər.

- Müzakirə edin ki, valideynlərin belə bir qərarının hansı mənfi nəticələri ola bilər.
- Cavabınızı əsaslandırın.

***Cavabı cavablar vərəqindəki tapşırığın uyğun nömrəsinin yanına yazın.***

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 38**

*Maksimal bal - 3*



“Böyüklər səni cəzalandırmağı qərara aldıqlarında, müqavimət göstərməyə dəymir. Kimi bəyənirlər, yalnız onunla hesablaşırlar, mənimsə qarşıma hələ ki məni bəyənə biləcək biri çıxmayıb. Özümü tanıyandan bəri hamının ümidlərini boşa çıxarıram”.

*„Gecə avtobusunda qəhrəman”. Oncali Rauf*

– Strategiyanı təsvir edin ki, bunun istifadəsi də şagirdin özünü qiymətləndirməsini artırmaqda müəllimə kömək edəcək.
– Cavabınızı əsaslandırın.

**** Cavabı cavablar vərəqindəki tapşırığın uyğun nömrəsinin yanına yazın.***

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**Tapşırıq N 39**

*Maksimal bal - 3*

Bir çox hallarda, görünən və ağır çətinlikləri olan xüsusi təhsilə ehtiyacı olan şagirdlərin akademik qabiliyyətlərini elə bir dərəcədə inkişaf etdirmək mümkün olmur ki, onlar həmyaşıdları ilə birlikdə dərs prosesinə qoşulsunlar. Belə hallarda onların funksional akademik qabiliyyətlərə (funksional yazı, oxu və riyazi bacarıqlar) yiyələnməsi vacibdir.

- Xüsusi təhsilə ehtiyacı olan şagirdin funksional akademik qabiliyyətlərə yiyələnməsinə kömək edəcək fəaliyyəti təsvir edin.
- İzah edin ki, təsvir etdiyiniz fəaliyyət xüsusi təhsilə ehtiyacı olan şagirdin adaptasiyasına necə yardım edəcək.

**** Cavabı cavablar vərəqindəki tapşırığın uyğun nömrəsinin yanına yazın.***

**Tapşırıq N 40**

*Maksimal bal - 3*

Gürcü dili dərsində xüsusi təhsilə ehtiyacı olan şagirdi fərdi assistent müşayiət edir. Müəllim sinifə oxunulan mətnin təhlilini və əsas fikrin çıxarılmasını tapşırdı, xüsusi təhsilə ehtiyacı olan şagirdin assistentinə isə dedi: "Bu tapşırıq onun üçün çətindir, sinifdən geri qalmasın, ona kömək et və sən yaz".

- Göstərilən halda fərdi assistentin necə davranmalı olduğunu təsvir edin ki, öz vəzifəsini maksimal olaraq effektiv yerinə yetirsin.
- Cavabınızı əsaslandırın.

**** Cavabı cavablar vərəqindəki tapşırığın uyğun nömrəsinin yanına yazın.***

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22
23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40